AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
RİYAZİYYAT VƏ MEXANİKA İNSTİTUTU

*Əlyazması hüququnda*

EMİNAĞA MİRZAĞA oğlu MƏMMƏDOV

# NƏSİRƏDDİN TUSİNİN ƏSƏRLƏRİNDƏ RİYAZİ ANLAYIŞLARIN MAHİYYƏTİ VƏ MƏNTİQİ ASPEKTLƏRİ

1205.01 – Riyazi məntiq və ədədlər nəzəriyyəsi

riyaziyyat üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

Bakı – 2014

Dissertasiya işi **AMEA Riyaziyyat və Mexanika İnstitutunun** «Cəbr və riyazi məntiq» şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər**:
fizika-riyaziyyat elmləri namizədi, dosent **Əli Ə.Babayev**

**Rəsmi opponentlər:**
fizika-riyaziyyat elmləri doktoru, prof. **Bilal T.Bilalov**
(AMEA Riyaziyyat və Mexanika İnstitutu);
fizika-riyaziyyat elmləri namizədi, dos. **Oqtay M.Məmmədov**
(Bakı Dövlət Universiteti).

**Aparıcı təşkilat:**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
«Cəbr və həndəsə» kafedrası.

Dissertasiyanın müdafiəsi 07 mart 2014-cü il saat $16^{00}$-da Azərbaycan Milli Elmlər Akademiyası Riyaziyyat və Mexanika İnstitutunun nəzdində elmlər doktoru və fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün B/D 01.111 birdəfəlik dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Dissertasiya işi ilə Azərbaycan Milli Elmlər Akademiyası Riyaziyyat və Mexanika İnstitutunun kitabxanasında tanış olmaq olar.

Ünvan: AZ 1141, Bakı şəhəri, B.Vahabzadə küç. 9.

Avtoreferat göndərilib 28 yanvar 2014-cü il.

**AMEA RMİ-nin B/D 01.111**
**Birdəfəlik Dissertasiya Şurasının**
**elmi katibi** dosent **Tamilla Həsənova**

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI[1]

**Mövzunun aktuallığı.** Keçən əsrin ortalarından başlayaraq keçmiş SSRİ məkanında, o cümlədən respublikamızda N.Tusinin və digər klassiklərin elmi irsinin araşdırılması, onların əsərlərinin tərcüməsi geniş vüsət almışdır. Bu dövrdə Nəsirəddin Tusinin elmi irsinin öyrənilməsi, əsərlərinin tərcüməsi, əlyazmalarının araşdırılması istiqamətində M.Həşimzadə, F.Qasımxanov, H.Məmmədbəyli, B.Rozenfeld, R.Sultanov, Z.Xəlilov, T.N. Qara-Niyazov, Q.P.Matviyevskaya, A.P.Yuşkeviç və s. kimi məşhur alimlər böyük işlər görmüşlər. H.C.Məmmədbəyli Azərbaycanda N.Tusi irsinin ilk araşdırıcısı və təbliğçilərindən biridir. 1952-ci ildə o, B.A. Rozenfeldlə birlikdə N.Tusinin "Şəkl əl-qitə" əsərini rus dilinə tərcümə edərək «Трактат о полном четырехстороннике (Шаклул гита)» başlığı altında kitab şəklində nəşr etdirmişlər. Qeyd edək ki, kitabın ön sözünün müəlliflərindən biri mərhum akademik Z.Xəlilovdur. H.C. Məmmədbəyli 1966-cı ildə «Основатель Марагинской обсерватории Насиреддин Туси» mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. H.C.Məmmədbəyli elmi araşdırmalarında tutarlı dəlillər əsasında bəzən avropa alimlərinin adları ilə bağlanan kəşflərin məhz Şərq alimlərinə aid olduğunu dəfələrlə göstərmişdir. Bütün bu faktlar onun «Основатель Марагинской обсерватории Насиреддин Туси» adlı monoqrafiyasında geniş şəkildə öz əksini tapmışdır.

Respublikamızda N.Tusinin riyazi irsinin tədqiqinin ikinci mərhələsi 2000-ci il "Nəsirəddin Tusinin anadan olmasının 800 illiyi haqqında Azərbaycan Respublikasının Prezidentinin fərmanı" ilə bağlıdır. Fərmanda söylənir: "Nəsirəddin Tusi özündən sonra olduqca böyük elmi irs qoyub getmişdir. Onun əsərləri dünya xalqlarının bir çox dillərinə tərcümə edilərək çap olunmuş, neçə-neçə alimlər nəslinin yetişməsində müstəsna rol oynamışdır. Təəssüflə qeyd edilməlidir ki, Nəsirəddin Tusinin çoxsahəli yaradıcılığı ölkəmizdə hələ lazımi səviyyədə tədqiq olunmamışdır. Mütəfəkkir alimin irsinin dərindən öyrənilməsi Azərbaycan elmi qarşısında duran vacib məsələlərdəndir". Bundan sonra AMEA Riyaziyyat və Mexanika İnstitunda Ə.Ə.Babayevin rəhbərliyi altında "Azərbaycan riyazi irsinin tətqiqi" şöbəsi fəaliyyətə başlamışdır. Bu müddət ərzində

[1] [1] Bu iş Azərbaycan Respublikasının Prezidenti yanında Elmin inkişafı Fondunun maliyyə dəstəyi ilə yerinə yetirilmişdir –
**Qrant № EIF-2011-1(3)-82/19/1**